

# “Dəmir yumruq”la qazanılan misilsiz zəfər

**Qarabağ! Otuz ilə yaxındır ermənilərin bu torpaqlara iddiaları ilə bağlı yaranmış münaqişə Azərbaycan xalqının ən ağrılı probleminə çevrilmişdi. İllər boyu davam edən danışıqlar prosesi, ölkəmizə uzanan saxta, ikiüzlü yardım əlləri, əvvəlki dövrlərdə olduğu kimi, yenə heç bir fayda vermir, işğalın uzadılmasına vəsilə olurdu. Münaqişənin həlli üçün atılan addımlar fitnəkar düşmənin – dünya erməniliyinin səyi nəticəsində səmərəsiz hala gəlir və getdikcə öz həqiqi missiyasından uzaqlaşırdı.**




"Ermənilər düşüncə və məqsədlərini gizli tutan, hiyləgər fırıldaqçılardır. Çətin anlarında kömək aldıqları insanlara nankorluqla arxa çevirirlər”. Bu sözlər məşhur fransız yazıçısı Aleksandr Dümaya məxsusdur. İşğal da məhz bu qəbildən başlamış, ermənilər tarix boyu gizlətməyə çalışdıqları xain sifətlərini ortaya qoymuşdular.

1988-1993-cü illərdə ermənilər hüquqi və tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağı və ətraf rayonları işğal etdikdən sonra 1994-cü il mayın 12-də Bişkekdə atəşkəsə dair protokol imzalandı. Atəşkəsə baxmayaraq, bölgədə silahlar susmadı. Bununla yanaşı, bu sənəd də məsələnin həlli üçün yararlı bir funksiyaya malik deyildi. Vahid ordusu olmayan, yenicə yaradılmış müstəqil Azərbaycan Respublikası torpaqlarının 20 faizini itirmiş, minlərlə insan şəhid olmuş, 1 milyondan artıq soydaşımız məcburi köçkünə çevrilmişdi. Xarabalığa çevrilən tarixi abidələr, sənət nümunələri saymaqla bitmir, mədəniyyətimiz də mənəvi genosidə məruz qalmışdı.

Düşmən Qarabağ torpaqlarından Azərbaycan – türk izini silmək üçün əlindən gələn hər şeyi edirdi. Ermənilər mədəniyyət ocaqlarını, məktəbləri, muzeyləri, gimnaziyaları, heykəlləri, tarixi abidələri dağıdır, bununla da, həmin irsin əsl sahiblərinin izlərini silib itirməyə çalışırdılar. Amma, qorxaq idilər. O qədər qorxurdular ki, daşla, betonla savaşırdılar. O qədər qorxaq idilər ki, silahsız və günahsız insanlara güc tətbiq edir, "güclərini" onlara göstərərək, gücsüzlüklərini ört-basdır etmək istəyirdilər.

## Bacara bilmədilər

Qarabağ bölgəsi təkcə Azərbaycanın yox, dünyanın ən qədim tarixə malik ərazilərindən biridir. Azərbaycanın ayrılmaz parçası olan bu torpaqlar sadəcə qədim tarixi ilə deyil, maddi-mədəniyyət nümunələri – tarixi abidələri, ədəbiyyatı, incəsənəti və musiqisi ilə də hər zaman seçilmişdir. Qarabağın çoxşaxəli yaradıcılıq sahələrindən biri xalq sənətidir. Təsadüfi deyil ki, dünyanın bir sıra məşhur muzeylərində Qarabağ-Azərbaycan xalq sənəti növlərinə aid olan bir çox nümunələrlə qarşılaşmaq olar. Bu muzeylərə İngiltərənin Viktoriya və Albert, Fransanın Luvr, ABŞ-ın “Metropoliten”, Sankt-Peterburqun Ermitaj muzeylərini, habelə Avropanın və dünyanın bir çox tanınmış muzeylərini misal göstərmək olar.

Bu muzeylərdə, həmçinin, Azərbaycanın ən qədim və zəngin xalçaçılıq məktəblərindən olan Qarabağ xalçaçılıq məktəbinə aid xalçalar mühafizə olunur. Ümumilikdə 33 kompozisiyası olan bu xalçalar, əsasən, Qarabağın dağlıq hissəsində, xüsusən, Malıbəyli, Muradxanlı, Daşbulaq, Horadiz və bir çox başqa yerlərində toxunulurdu. Qarabağın dağlıq zonasında X əsrdən başlayaraq pambıq və yun emal olunmağa başlamış və bölgə iri sənətkarlıq mərkəzinə çevrilmişdir. XIX əsrdə Şuşa şəhəri başda olmaqla, Daşbulaq, Dovşanlı, Girov, Çanaxçı, Tuğ və sair kəndlər xalça istehsalında əsas mərkəzlər hesab olunurdu.

Bütün bunlarla yanaşı, ərazidə aparılmış arxeoloji qazıntılar zamanı külli miqdarda maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Bu nümunələr Qarabağın mədəniyyət tarixini öyrənməyə imkan yaratmış, keçmişin işıqlandırılmasına yardım etmişdir. Tapılan qab-qacaq, silah, müxtəlif məişət və bəzək əşyaları Qarabağın tarixi və sənətkarlıq haqqında dəyərli bilgilər əldə etməyə imkan yaratmışdır. Əşyaların və silahların üzərində işlənmiş xüsusi ustalıq tələb edən incə naxış nümunələri bölgə sənətkarlarının orijinal dəsti-xətti barədə yüksək fikir formalaşdırır. Bütün bu faktlar Qarabağda hələ qədim zamanlardan təsviri sənətin geniş inkişafını göstərir.

Zəngin tarixə malik qədim Azərbaycan torpağı hər zaman yerli və xarici alimlərin, tədqiqatçıların maraq dairəsində olmuşdur. Bununla yanaşı, Qarabağ, bu irsi özününküləşdirməyə çalışan avantüristlərin də diqqətindən yayınmamışdır.

Qarabağ torpağı Azərbaycan ədəbiyyatına yön verən bir çox ədib yetişdirmişdir. X-XI əsrlərdə Qarabağda müsəlman Şərqinin məşhur simaları Səid Əmirül Bərdəyi, Məhəmməd Abdulla Bərdəyi kimi dahi şəxsiyyətlər yaşayıb yaradıblar. O dövrün qarabağlı şairi Məsud Namdar isə "İncil"i ərəb, fars və türk dillərinə tərcümə edərək məşhurlaşmışdır.

XIV əsrdə Tuti Abdulla Qarabaği, XV əsrdə qarabağlı Şeyx İbrahim ədəbi aləmdə yaxşı tanınan şairlərdən idi.

XVI əsrdən başlayaraq özünün çiçəklənmə dövrünü yaşayan Azərbaycan ədəbiyyatı Qarabağdan da yan ötməmişdir. Bu dövrdə yazıb-yaradan filosof-yazar Məhəmməd Qarabağinin əsərləri Qahirə kitabxanasında qorunub saxlanılır. Həmçinin, ustadlar ustadı Aşıq Qurbani, XVIII əsrdə Aşıq Valeh, Aşıq Əli Ziyadi Qarabaği və Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatına önəmli töhfələr vermiş və mədəni irsimizin yeni nəsillərə gəlib çatmasına vəsilə olmuşlar.

Əlbəttə, Qarabağdan danışarkən, Şuşadan yan keçmək mümkün deyil. XVIII əsrdə Pənahabad – indiki Şuşa şəhərinin salınması sənətkarlıq, xalçaçılıq da daxil olmaqla, ümumi Qarabağ mədəniyyətinin bu şəhərə toplanmasına gətirib çıxardı. Sənətkarlar, bəstəkarlar, ədəbiyyatçılar məskəninə çevrilən Şuşa şəhəri əsrlər boyu Qarabağ üzüyünün qaşı, Azərbaycan mədəniyyətinin nəqqaşı olmuşdur.

XIX əsrin görkəmli alimi Mir Möhsün Nəvvab özünün "Təzkireyi-Nəvvab" əsərində bu şəhərdə yaşamış bir çox şair və yazıçının adlarını zikr etmişdir. Xurşidbanu Natəvan, Aşıq Pəri, Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Mirzə Mehdi Xəzani də bu ədiblərdəndir.

"Müsibəti-Fəxrəddin" faciəsi və bir çox başqa əsərləri ilə Nəcəf bəy Vəzirov, qələmə aldığı komediya və faciələrlə Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatında parlaq və yeni bir səhifə açmışlar.

İlk azərbaycanlı qadın aşıq Aşıq Pəri də bu torpaqlarda yetişmişdir. Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağayev, Süleyman Sani Axundov, Ceyhun bəy Hacıbəyli Şuşanın Azərbaycan və o cümlədən, dünya ədəbiyyatına bəxş etdiyi görkəmli ziyalılardır. Musiqisiz Şuşa, Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan olmaz. Mədəniyyət Günəşi Şuşa zəngin musiqi tarixi və musiqiçiləri ilə də hər zaman ön planda olub. Qarabağda el şənlikləri, toylar, müxtəlif dini mərasimlərdə qədim dövrlərdən musiqidən istifadə edilirdi. Bu musiqi keçmişinin ən qədim və məşhur növü isə, aşıq sənətidir. Böyük sənətkar Aşıq Valeh bu sənətin ən mahir icraçısı olmaqla yanaşı, həm də onun yayılmasına və inkişaf etdirilməsinə böyük töhfələr vermişdir. "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Baş Sarıtel", "Orta Sarıtel" də Aşıq Valehin Azərbaycan musiqisinə hədiyyə etdiyi musiqi örnəkləridir.

XVIII əsrdə yaşamış Sarı Aşıq "Bayatı demək qadın işidir" deyənlərə məhəl qoymadan öz yaradıcılığında bu janra xüsusi yer üstünlük vermişdir.

XIX əsrin ortalarından Şuşada yerli teatr həvəskarları tamaşalar göstərməyə başlamışdı.

1891-ci ildə Şuşada xeyriyyəçi H.Xandəmirov teatr binası tikdirmiş və bununla da teatr tamaşalarının sayı artmağa başlamışdır.

Şuşada musiqi ilə maraqlanan, oxuyan, musiqi alətlərində ifa edən insanlar başqa bölgələrə nəzərən daha çox idi. Görkəmli musiqişünas, tənqidçi V.Vinoqradov öz yazılarında Şuşa əhalisinin musiqiyə olan xüsusi marağından, həmçinin, Azərbaycan musiqisində bu şəhərin rolundan bəhs etmişdir.

Xarrat Qulu dövrünün ən tanınmış musiqişünası idi. O, Şərq musiqisini mükəmməl bilirdi. Şuşada məclislər keçirərək gözəl səsi olan gəncləri bu məclislərə cəlb edir və yetirmələrinə, onlara xanəndəlik sənətinin incəliklərini öyrətməyə çalışırdı. Azərbaycan vokal sənətinin inkişafında mühüm yerə sahib olan Hacı Hüsü, Məşədi İsi Sadıqcan, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd də həmin məktəbin yetirmələridir.

Onun ölümündən sonra Hacı Hüsü və görkəmli musiqişünas Mir Möhsün Nəvvab tərəfindən "Musiqişünaslar məclisi" yaradılmışdır.

İlk Şərq konserti də məhz Şuşa şəhərində 1901-ci ildə təşkil olunmuşdur. Xandəmirovun teatrında keçirilən bu konsertə Əbdürrəhim bəy Haqverdiyev rəhbərlik etmiş və Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, tarzən Sadıqcan daxil olmaqla, bir sıra sənətkarlar iştirak etmişlər. Fransız dili müəllimi, məşhur siyasi xadim və jurnalist Əhməd bəy Ağayev konsert haqqında yazmışdı: "... Tamaşaçılar böyük ehtirasla orijinal türk musiqisini və xalq mahnılarını dinləyirdilər." ("Kaspi" 11 yanvar 1902)

Bu şəhərə gələn səyyahlar musiqi və incəsənət məclisləri ilə yaxından maraqlanır, göstərilən maraqlı teatr tamaşalarına, hər evdən yüksələn musiqiyə, muğama heyran qalırdılar. Bu səbəbdən də, Şuşanı "Qafqazın konservatoriyası" adlandırırdılar. Şuşa həm Azərbaycanın, həm də Qafqazın musiqi paytaxtı idi. Burada xanəndəlik sənətinin inkişafı üçün musiqi salonları, məclislər, dərnəklər və musiqi məktəbləri yaradılmışdır. Bu musiqi məktəblərinin bir çoxunu Xarrat Qulu və Molla İbrahim yaratmışdı.

## Üzeyir bəy Hacıbəyli

XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağın yetişdirdiyi ən görkəmli simalardan biri, dahi bəstəkar, Şərqdə ilk operanın müəllifi, musiqili komediya janrının yaradıcısı Üzeyir Hacıbəylidir. O, həm də Azərbaycan Himninin müəllifidir. Üzeyir bəy Azərbaycan xalq ədəbiyyatını və musiqisini klassik Qərb musiqisi ilə birləşdirərək klassik musiqinin xalq arasında sevilməsinə səbəb olmuşdur. Bu şəkildə Qərb musiqisi Azərbaycan mədəniyyətində xüsusi yer tapmışdır. O, 1937-ci ildə "Koroğlu" operasını bəstələmiş və bu əsər "Arşın mal alan" ilə birlikdə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. Təsadüfi deyil ki, bu dahi bəstəkarın doğulduğu 18 sentyabr Azərbaycanda Musiqi Günü kimi qeyd olunur.

Şuşa, həmçinin Seyid Şuşinskinin, Xan Şuşinskinin, Rəşid Behbudovun, Bülbülün, Məşədi Cəmil Əmirovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Süleyman Ələsgərovun və başqa dahi sənətkarların vətənidir.

Azərbaycan tarixinin ən qaranlıq səhifələrindən biri olan erməni işğalının, bu işğalın geridə qoyduğu 30 ilə yaxın zaman kəsiyinin ən ağrılı məqamlarından biri də bu əzəmətli qala şəhərinin, incəsənət beşiyi Şuşanın işğal olunması idi.

## İllər keçdi və dövranın gərdişi dəyişdi...

Azərbaycan sürətlə inkişaf etdi. 2003-cü ildə görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ordu quruculuğuna verilən önəm artırıldı. Azərbaycan həm iqtisadi, həm də hərbi yöndən güclənməyə, böyüməyə başladı. Azərbaycan zamanla düşmənin tarixi torpaqlarımızda törətdiyi vəhşilikləri dünya ictimaiyyətinə tanıtmağa, çatdırmağa nail oldu. Mədəni irsimiz, musiqimiz, ədəbiyyatımız özünə layiq şəkildə işıqlandırıldı və dünya insanına təqdim edildi.

2020-ci il 27 sentyabr tarixində növbəti erməni təxribatına əks-həmlə ilə cavab verən Azərbaycan xalqı qəlbləri titrədən, kövrəldən, bir o qədər də qürurverici bir xəbərə sevindi. Otuz ildir ki, düşmən tapdağında olan 8 kənd işğaldan azad edildi.

## Dəmir yumruq

Günlər, həftələr içində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri işğaldan azad edildi. Dirçəliş...

Bu, bir xalqın oyanışı, bir dövrün qapanışı və yeni işıqlı bir dövrün başlanğıcı idi. Azad edilən torpaqlarda üçrəngli əzəmətli Azərbaycan Bayrağı dalğalandırılır, müstəqil respublikamız öz ruhunu yenidən bərpa edirdi. Daşı da, kəsəyi də gülən bu doğma torpaq da ən az bizim qədər sevinirdi dönüşümüzə, qayıdışımıza. Zəfər dolu bu günlərdə xalqın həsrətlə gözlədiyi gün gəlib çatdı. Üzüyümüzdən qopub düşmən əlinə düşən o brilyant qaş – Şuşa işğaldan azad edildi. 8 noyabr 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi formada Azərbaycan xalqının önünə çıxdı. Ölkə başçısı qayıdışımızı illərlə həsrət qaldığımız Şuşaya xitabən belə dedi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Düşmənə göstərdiyi o dəmir yumruğun sahibinin də qəlbi fərəhlə dolmuşdu, gözləri yaşarmışdı. Sonra xalq Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda gedən, hələ uzun illər danışılacaq, haqqında şeirlər, romanlar yazılacaq, musiqilər bəstələnəcək, filmlər çəkiləcək həmin döyüşlər barədə xəbərlər aldı. Xanların, bəylərin, sənətkarların, yazıçıların və şairlərin, bəstəkarların və alimlərin dişi, dırnağı ilə yaratdığı, dağların çevrəsində, buludların kölgəsində yerləşən əzəmətli Şuşa bu səfər də qəhrəman əsgərimizin yalın əlləri, dəmir pəncəsi, dişiylə, dırnağıyla vəhşi və xain, qorxaq düşməndən azad edildi. O gün, xüsusən, şəhidlərin narahat ruhları sevindi...

İnsanlar Şəhidlər xiyabanını ziyarət edir və şəhidlərə, Vətən uğrunda can alıb – can verən qəhrəmanlara şad xəbəri çatdırırdılar.

Şuşa işğal olunmasın deyə öz tankı ilə saatlarla bu şəhəri tək başına qoruyan tankçı Milli Qəhrəman Albert Aqarunovun soyuq mərmər üzərindəki rəsmi də həmin gün canlanmışdı. Albert xəbəri hamıdan əvvəl almışdı. Sanki gülürdü. Ruhu şaddır, yeri rahatdır artıq. Şuşa azaddır artıq.

Cəmi iki gün sonra Azərbaycan Ordusunun gücü qarşısında tab gətirə bilməyən Ermənistan hakimiyyəti hərbi kapitulyasiyaya imza atdı və işğal altında olan Azərbaycan torpaqlarından çıxacaqlarına təminat verdi.

Bu Zəfər idi. Tarixin, ədalətin, mədəniyyətin, Azərbaycan xalqının və onun müzəffər Ali Baş Komandanının Zəfəri.

*İmran ƏLİYEV*